"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin
Rektoru _____ İ.İ.Mədətov
"13" sentyabr 2019 – cil

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
Azərbaycan Turizm və Menecment Universiteti
Sosial menecment fakültəsi haqqında
ƏSASNAMƏ

"Sosial menecment" fakültəsi Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) tədris elm və inzibati bölməsi olub, xidmət sahələrinin müxtəlif istiqamətində "Beynəlxalq münasibətlər", "Sosial iş", "Regionşünaslıq", "Nəqliyyat servisi", "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması", "Qida məhsulları mühəndisliyi" ixtisasları üzrə bakalavr, ali təhsilin magistratura səviyyəsində "Regionşünaslıq", "Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş", "Beynəlxalq mədəni əlaqələr tarixi və nəzəriyyəsi", "Aviasiya nəqliyyatında servis xidmətinin təşkili", "Dəmiryolu nəqliyyatında servis xidmətinin təşkili", "Qida təhlükəsizliyi", "Arxeoloji və tarixi memarlıq abiələrinin mühafizəsi" və "Muzeyşünaslıq" ixtisasları qrupuna daxil olan müxtəlif ixtisaslar və ixtisaslaşmalar üzrə magistr, həmçinin ali təhsilin doktorantura səviyyəsində "Sosial elmlər", "Beynəlxalq münasibətlər", "Mədəniyyətşünaslıq və kulturologiya" üzrə fəlsəfə və elmlər doktoru hazırlığı üzrə doktorantura proqramlarında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, rəhbər işçilərin və ixtisaslı sıravi mütəxəssislərin (kadrların) ixtisasının artırılması (və yenidən hazırlanması) işini həyata keçirir, eləcə də fakültədə elmi-tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

"Sosial menecment" fakültəsində mütəxəssislər Bolonya prosesinin prinsiplərinə uyğun olaraq təlimin müxtəlif formaları (əyani və qiyabi formada) üzrə həm istehsalatdan ayrılmaqla, həm də istehsalatdan ayrılmamaqla təhsil almaqla hazırlana bilərlər. "Sosial menecment " fakültəsində bu təlim formalarından biri və ya bir neçəsi tətbiq oluna bilər.

"Sosial menecment" fakültəsində təlimin müxtəlif formaları və ya müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanarsa, tələbələrin sayından asılı olaraq ayrı-ayrı

təlim forması və ya ixtisaslar üzrə tələbələrin sayı 100 nəfərdən çox olduqda fakültənin daxilində uyğun şöbələr (əyani şöbə, qiyabi şöbə, magistratura şöbəsi, ayrı-ayrı ixtisaslar üzrə şöbələr) yaradıla bilər.

"Sosial menecment" fakültəsi üzrə bütün normativlər müəyyənləşdirilərkən, tələbələrin ümumi sayı əyani şöbədəki tələbələrin sayını 1/1-ə, qiyabi şöbədəki (əlavə təhsil) tələbələrin sayının isə 1/3-ə vurmaqla hesablanır.

"Sosial menecment" fakültəsi "Beynəlxalq münasibətlər", "Sosial iş", "Regionşünaslıq", "Nəqliyyat servisi", "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması" ixtisaslarının əsas ixtisas kafedraları olan "İnformasiya texnologiyaları və təbiət elmləri", "Beynəlxalq münasibətlər" və "İctimai fənnlər" kafedaralarını (o cümlədən zərurət yarandıqda yaradıla biləcək digər ixtisas kafedralarını) həmçinin fakültəyə xidmət göstərən digər kafedraları, tədris laboratoriyalarını, fənn kabinetlərini, nümayiş zallarını, muzeyləri, emalatxanaları, tədris bazalarını və s. özündə birləşdirir. "Sosial menecment " fakültəsinin nəzdində həm fakültəyə, həm də başqa fakültələrə də xidmət edən qeyri-ixtisas kafedraları yaradıla bilər. ATMU-da fakültənin profilinə uyğun olaraq bütün kafedralar hansı fakültəyə xidmət etməsindən asılı olmayaraq onun tərkibinə daxil edilir.

"Sosial menecment " fakültəsi ATMU-nun Elmi Şurası tərəfindən yaradılır və bu haqda Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinə yazılı məlumat verilir.

ATMU-da müəyyən ixtisas və istiqamətlər üzrə yeni fakültələr tələbələrin sayı (bakalavr və magistr birlikdə) 300 nəfərdən çox (bundan 200 nəfərdən çoxu əyani şöbədə) olduqda yaradılır. "Sosial menecment " fakültəsinə mövcud qaydada seçilmiş və ya təyin olunmuş dekan rəhbərlik edir.

"Sosial menecment" fakültəsinin ştatında fakültə dekanının müavini vəzifəsi nəzərdə tutulur. "Sosial menecment " fakültəsində təhsil alan tələbələrin sayı 800 nəfərə çatdıqda ikinci və sonrakı hər 500 nəfər tələbə üçün əlavə bir dekan müavini ştatı əlavə olunur.

"Sosial menecment" fakültəsi dekanı və dekanın müavinləri tutduqları vəzifə üçün müvafiq normativ əsasında əlavə əmək haqqı alırlar.

"Sosial menecment" fakültəsi dekanı:

- Fakültədə tədris prosesinə, tərbiyə işinə və elmi-tədqiqatların yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;

- Təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin edir;

- Tələbələrin elmi, pedoqoji və istehsalat praktikalarının həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;

- Fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçirilməsinə nəzarət edir;

- Tələbələrin müstəqil işlərinə nəzarət edir və onların elmi fəaliyyətləri üçün şərait yaranmasını təmin edir;

- Tələbələrin imtahan və yoxlamalarının keçirilməsinə nəzarəti təşkil edir, akademik borcları ləğv etmək üçün qruplar yaradır. Bütün imtahan yoxlama prosesinin normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;

- Bakalavriat və magistratura səviyyələrində tələbələrinin köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair rektora təqdimatlar verir;

- Tələbələri semestrdən-semestrə və kursdan-kursa keçirmək, eləcə də tələbələr sırasından xaric etmək və təkrar kursda saxlamaq üçün rektora təqdimatlar verir;

-Tələbələrin buraxılış-yekun dövlət imtahanlarında, buraxılış işlərinin müdafiəsinə və magistrların dissertasiya müdafiəsinə buraxılmasına icazə verir;

- Fakültədə təhsil alan tələbələrə mövcud qaydaya uyğun şəkildə təqaüdü təqdim edir;

- Fakültədə çalışan professor-müəllim heyətinin ixtisas artırılması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;

- Fakültədə təhsil alan doktorantların lazımi səviyyədə təşkil olunmasını təmin edir. Onların attestasiyalarını keçirir;

- Fakültənin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki göstərişlərin və tələbələrə təqdim olunan mətnlərin hazırlanmasına göstərişlər verir və bu işə ümumi rəhbərlik edir;

- Kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;

- Ümumfakültə elmi-metodiki və elmi seminarların təşkil olunmasını təmin edir;

- Fakültədə hazırlanan ixtisaslar üzrə peşə yönümlü işin aparılmasını təşkil edir və onun lazımi səviyyədə aparılmasına məsuliyyət daşıyır;

- Ali təhsilin hər iki pilləsi, eləcə də magistratura və doktorantura üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları, ixtisaslaşmaları müəyyənləşdirir, onlar üzrə illik və perspektiv qəbul planları üzrə ali məktəbin rəhbərinə təkliflər təqdim edir;

- Fakültə elmi şurasına rəhbərlik edir;

- ATMU-da fakültənin fəaliyyəti ilə bağlı olan bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda fakültəni təmsil edir;

- Dekan müavinlərini təyin etmək üçün təqdimat verir;

- Fakültədə olan bütün tədris-köməkçi heyətin işinə nəzarət edir. Onların işə qəbulu və işdən azad olunması, eləcə də rəğbətləndirilməsi və cəzalandırılması üçün ATMU-nun rektoruna təqdimat verir;

- Ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir;

"Sosial menecment" fakültəsinin dekan müavini fakültə dekanının təqdimatı əsasında ATMU rektorunun əmri ilə təyin olunur. Dekan müavini fakültənin profilinə uyğun olaraq müvafiq ixtisasa malik olmaqla yanaşı, elmi ad və ya dərəcəyə də malik olmalıdır.

"Sosial menecment" fakültəsinin fəaliyyətinə dair məsələlərə baxmaq üçün fakültədə mövcud qanunvericiliyə uyğun təşkil olunmuş Elmi Şura fəaliyyət göstərir.

"Sosial menecment" fakültəsi ATMU rektorunun təşəbbüsü ilə ATMU-nun Elmi Şurasının qərarı əsasında ləğv oluna bilər. Bu qərar Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

Əsasnamə Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasının 13 sentyabr 2019-cu il (1 saylı Protokol) tarixli iclasında müzakirə edilərək təsdiq edilmişdir.